# İlham Əliyev Qoşulmama Hərəkatının Belqradda keçiriləcək yubiley tədbirinin ev sahiblərindən biri olacaq




*Serbiya ilə əlaqələr bizim üçün çox böyük əhəmiyyət kəsb edir. Əminəm ki, gələcəkdə bu əlaqələrin uğurlu inkişafı üçün bütün imkanlar, şərait var. Əsas odur ki, çox güclü qarşılıqlı müştərək iradə var. Hesab edirəm ki, biz gələcək illəri də bu arzularla yaşayacaq, Serbiya – Azərbaycan əlaqələrini inkişaf etdirəcəyik.*

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

**Avropalı diplomatın dilindən Prezident İlham Əliyevin Qoşulmama Hərəkatının Belqradda keçiriləcək 60 illik yubiley tədbirinə evsahibliyi edəcəyi barədə məlumatı eşitmək soydaşlarımızı məmnun etdi. Belə ki, Serbiya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Draqan Vladisavljeviç mayın 3-də etimadnaməsini Azərbaycan Prezidenti İlham Əliyevə təqdim edərkən vurğuladı ki, mən, Prezident Vuçiçin Sizin Serbiyaya rəsmi səfər etməyinizlə bağlı dəvətini çatdırmaq istərdim.**

Öz ölkəsinin dövlət başçısının mesajını Azərbaycan Prezidentinə çatdıran diplomat əlavə etdi ki, "həm rəsmi Bakının, həm də rəsmi Belqradın qarşısında Qoşulmama Hərəkatının və Belqradda keçirilmiş 1-ci sammitin 60-cı ildönümünün təşkili ilə bağlı fəal iş durur. O, hərəkatın təsisçisi olan dövlətlərin – Hindistan, Misir, İndoneziya və Qananın liderlərini və əlbəttə ki, hərəkatın sədri olaraq Sizi bu münasibətlə dəvət etmək niyyətindədir. Siz, Prezident Vuçiçlə birlikdə tədbirə ev sahibliyi edəcəksiniz".

Xatırladaq ki, Qoşulmama Hərəkatı özlərinin formal olaraq heç bir bloka tərəf olmadığını bildirmiş 120 dövlətin üzv olduğu, digər 17 ölkənin və 10 beynəlxalq təşkilatın müşahidəçi statusunda çıxış etdiyi beynəlxalq təşkilatdır. Hərəkatın yaradılması ideyası 1955-ci ildə Bandonq konfransında (İndoneziya) irəli sürülsə də, 1961-ci ildə Fidel Kastro və İosif Broz Titonun rəhbərliyi ilə Yuqoslaviyada keçirilən konfransda Bitərəf Dövlətlər Hərəkatının yaradıldığı elan olunub. Quruma üzv olan ölkələrin dövlət başçıları səviyyəsində 15 sammit keçirilib. Bu hərəkatın üzvü olan 53 ölkə Afrika, 38-i Asiya, 26-sı Latın Amerikası və 1-i Avropadandır. 2019-cu ildən hərəkatın sədri Azərbaycan Respublikasıdır və Prezident İlham Əliyevin sədr kimi fəaliyyəti beynəlxalq aləmdə nümunə göstərilir.

Azərbaycan – Serbiya əməkdaşlığına gəlincə, xatırladaq ki, biz dövlət müstəqilliyimizi bərpa edəndə Serbiya hələ Yuqoslaviyanın tərkibində idi və Belqrad Azərbaycanın müstəqilliyini 1991-ci ilin son günündə -- dekabrın 31-də tanımışdı. Serbiya və Monteneqro İttifaqı ilə Azərbaycan Respublikası arasında ikitərəfli diplomatik münasibətlər isə 21 avqust 1997-ci ildə qurulmuşdur. 2011-ci il mayın 26-da Serbiyanın Azərbaycanda, həmin il iyunun 8-də isə Azərbaycanın Serbiyada səfirliyi açılmışdır. Azərbaycanla Serbiya arasında bütün sahələri əhatə edən strateji tərəfdaşlıq münasibətləri mövcuddur.

2013-cü il fevralın 9-da Azərbaycan Prezidenti İlham Əliyev və Serbiya Prezidenti Tomislav Nikoliçin iştirakı ilə "Azərbaycan Respublikası və Serbiya Respublikası arasında dostluq münasibətləri və strateji tərəfdaşlıq haqqında bəyannamə, 2018-ci il mayın 22-də isə prezidentlər İlham Əliyev və Aleksandr Vuçiç arasında "Azərbaycan Respublikası ilə Serbiya Respublikası arasında strateji tərəfdaşlıq üzrə birgə Fəaliyyət Planı"nı imzalanmışdır. 2015-ci ilin yayında Serbiya Prezidenti Tomislav Nikoliç "Birinci Avropa Oyunları"nın açılış mərasimində iştirak etmək üçün Azərbaycanda səfərdə olmuşdur. 2018-ci ilin mayında isə Prezident Aleksandar Vuçiç Azərbaycanda rəsmi səfərdə olmuşdur. İki ölkə arasında 34 sənəd imzalanmışdır.

Azərbaycan Prezidenti İlham Əliyev mayın 3-də Serbiya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Draqan Vladisavljeviçin etimadnaməsini qəbul edərkən xatırlatmışdır ki, bizim üçün Serbiya ilə əməkdaşlıq böyük əhəmiyyət kəsb edir. Çünki ölkələrimiz strateji tərəfdaşdır: "Əməkdaşlıq sahələri indi bir çox istiqamətləri əhatə edir. Hesab edirəm ki, əsas diqqəti artıq böyük irəliləyiş əldə etdiyimiz sahələrə və fəal əməkdaşlığın ilkin mərhələlərində olduğumuz bəzi sahələrdə hansı işləri görə biləcəyimiz məsələsinə yetirməliyik".

Dövlət başçımız əminliklə demişdir ki, beynəlxalq təşkilatlarda tərəfdaşlığımıza gəldikdə, biz bir-birimizi dəstəkləyəcək, bir-birimizin maraqlarını müdafiə edəcəyik: "Biz artıq bir sıra beynəlxalq təşkilatlarda çox yüksək səviyyəli həmrəylik nümayiş etdiririk. Bu, vacibdir. Çünki bu, həqiqətən də bizim əməkdaşlığın səmimi mahiyyətini əks etdirir".

Xatırladaq ki, üç il əvvəl – 2018-ci il mayın 21-də Azərbaycan Respublikasında rəsmi səfərdə olan Serbiya Respublikasının Prezidenti Aleksandr Vuçiçin rəsmi qarşılanma mərasimində dövlət başçımız bu ölkə ilə əməkdaşlığa böyük önəm verdiyini söyləmişdi: "Bizim əlaqələrimiz çox uğurla inkişaf edir. Biz dostuq, tərəfdaşıq, strateji tərəfdaşıq. Son illər ərzində əldə edilmiş uğurlar deməyə əsas verir ki, Serbiya --Azərbaycan əlaqələri bundan sonra da uğurla inkişaf edəcəkdir. Biz beynəlxalq təşkilatlarda bir-birimizi dəstəkləyirik, iqtisadi sahədə əməkdaşlıq aparırıq. Əminəm ki, bu gün aparılan danışıqlar nəticəsində bu sahəyə də yeni təkan veriləcəkdir. Humanitar sahədə çox gözəl əməkdaşlıq var".

Dövlət başçımız bir daha vurğulamışdır ki, Serbiya bizim üçün dost ölkədir və əminəm ki, bu dostluq əlaqələri bundan sonra da davam etdiriləcək: "Əminəm ki, səfər zamanı əldə edilmiş razılaşmalar gələcək uğurlu əməkdaşlığımızı daha da möhkəmləndirəcəkdir".

Serbiya Prezidenti Aleksandr Vuçiç isə Azərbaycanla əməkdaşlığa verdikləri önəmin miqyasını göstərrmək üçün özü ilə birlikdə Bakıya gətirdiyi nazirlərin sayına nəzər salmağın bəs etdiyini söyləmişdir: "Düşünürəm ki, mən Sizin Prezident seçilməyinizdən sonra ölkənizə səfər edən ilk dövlət başçısıyam. Bu, mənim üçün çox böyük şərəfdir. Azərbaycan ilə dostluq münasibətlərinin inkişafı bizim üçün çox vacibdir. Bu, bizim dövlətlərimizin və xalqlarımızın maraqlarına tam uyğundur. Bizim əməkdaşlığımız üçün çox böyük meydan var. Məhz bu səbəbdən də mən bizim hökumətimizin, demək olar ki, tam yarısı ilə Azərbaycana səfərə gəlmişəm. Çünki biz Azərbaycan ilə bütün sahələrdə əməkdaşlığı inkişaf etdirmək əzmindəyik".

Xatırladaq ki, Serbiya ilə Azərbaycan arasındakı əlaqələrdə humanitar sahə çox önəmli yer tutur. Dost ölkənin Prezidenti Bakıda səfərdə olarkən Azərbaycan Dillər Universitetində "Serb Dili və Mədəniyyəti Mərkəzi"nin açılışında da iştirak etmişdir. Serblər bu faktı serb xalqına, mədəniyyətinə, ədəbiyyatına Azərbaycanda çox böyük maraq, böyük hörmət qəbul edirlər. Belqradda da etiraf edirlər ki, humanitar sahədə mövcud olan əlaqələr xalqlararası əlaqələrin inkişafında mühüm yer tutur.

Dövlət başçımızın fikrincə, qarşılıqlı əməkdaşlığın genişləndirilməsi həm ölkələrimizə gəlir gətirəcək, həm də insanlar bir-birini daha yaxından tanıyacaqlar, dost olacaqlar: "Onsuz da bizim ölkələrimiz dost ölkələrdir, strateji tərəfdaşlardır. Serbiya ilə Azərbaycan daim bir-birini dəstəkləyən, bir-birinə kömək edən ölkələr kimi fəaliyyət göstərirlər".

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***